BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2008

# KİTABXANAŞÜNASLIQ

## KİTABXANA-İNFORMASİYA XİDMƏTİ: MÜASİR TENDENSİYALAR

**S.İ.MƏMMƏDOVA**
*Bakı Dövlət Universiteti*

İnformasiyalaşmış cəmiyyətin yaradılması bilavasitə informasiyanın alınması, işlənməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan informasiya daşıyıcısı kimi fəaliyyət göstərən kitabxana sistemləri mühüm əhəmiyyətə malikdir. Ona görə də müasir informasiya cəmiyyətində kitabxana işi ilə informasiya arasında çox sıx, qarşılıqlı əlaqələr meydana çıxıb formalaşmışdır. Bunları bir-birindən ayrılıqda düşünmək mümkün deyildir. Müasir dövrdə informasiyanın cəmiyyətin əsas, aparıcı qüvvələrindən birinə çevrilməsi və sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçidlə əlaqədar olaraq informasiya sahəsində baş verən texnoloji inqilab bəşər sivilizasiyasının bütün inkişafının gedişinə çox güclü təsir göstərir.Bu gün artıq heç kəs şübhə etmir ki, həyatın keyfiyyəti getgedə artıq dərəcədə informasiyadan, onun operativ tapılmasındın və istifadə edilməsindən asılıdır. Onu da qeyd edək ki, hal-hazırda dünyada baş verən iqtisadi və sosial dəyişikliklər, informasiyalaşdırma kitabxanaların fəaliyyətinə güclü təsir etməkdədir və onların qarşısına yeni vəzifələr qoymuşdur ki, bu vəzifələrin də yerinə yetirilməsi bilavasitə oxuculara xidmət işinin təşkilinə mühüm dəyişikliklər edilməsini diktə edir.

Müasir dövrümüzdə elmin və texniki tərəqqinin böyük vüsət alması, elmi tədqiqatların nəticələrinin cəmiyyət həyatına, təcrübəyə tətbiq edilməsi, texnologiyanın və texniki proseslərin sürətli inkişafı nəticəsində informasiya axınının, ümumiyyətlə, informasiya resurslarının artımı, köhnəlməsi və səpələnməsi hədsiz dərəcədə çoxalmışdır. Bu informasiya axınının işlənməsi, istehsal edilməsi və onun tələb olunan istiqamətlərə yönəldilməsi, tələbatçılıra çatdırılması insanların imkanları dairəsindən kənara çıxmışdır. Bu proses həm iqtisadi, həm də sosial sahədə baş verdiyindən daha mürəkkəb xarakter daşımağa başlamışdır. Başqa sözlə müasir şəraitdə bütün növ və tip kitabxanaların fəaliyyətində biliyin əldə edilməsi və kitabxana xidmətinin genişləndirilməsi ilə əlaqədar olaraq prioritetlər dəyişmişdir. Bununla yanaşı, inkişaf etmiş xarici dövlətlər artıq neçə onilliklərdir ki, müasir həyatın bütün sahələrində informasiyanın rolunun artması ilə bağlı informasiya partlayışı problemi, informasiya böhranı ilə qarşılaşmaqdadırlar. Belə bir şəraitdə sosial iqtisadi və mədəni problemlərdən biri kimi lazimı informasiyanı necə tapmaq «problemi meydana çıxır. Bəs, bu proses nə üçün baş verir?» Bu müxtəlif səbəblərlə bağlıdır: qeyd etdiyimiz ilkin səbəb kimi informasiyanın durmadan artan həcmi ilə əlaqədar informasiya mərkəz-

lərinin bu informasiyanı vaxtında izləyə bilməməsini, sonra isə digər informasiyanın yayılmasını, bəzi informasiya müəssisələrinin – kitabxanaların aşağı səviyyəli texniki təchizata sahib olmasını, milli, elmi, ərazi və beynəlxalq informasiya xidmətləri arasındakı koordinasiya əlaqəsinin yoxluğunu,informasiyanın kifayət qədər tam açılmamasını, istifadəçinin aşağı informasiya mədəniyyətli olmasını (sorğunu formalaşdırmaq bacarığının, axtarış apara bilmə qabiliyyətinin olmaması və s.) və kitabxanaçıların kifayət qədər peşəkar olmamasını misal göstərə bilərik. Məhz buna görə də kitabxanalarda bu problemi aradan qaldıra biləcək kitabxana xidmətinin qarşısında olduqca yeni, ənənəvi iş metodları ilə yanaşı, bilavasitə onlardan tamamilə fərqlənən, yeni informasiya texnologiyalarına əsaslanan, müasir dövr və şəraitlə ayaqlaşa bilən, indiki oxucu sorğularına operativ cavab verə biləcək xidmət metodlarının yaradılması problemi durur.

Hal-hazırda avtomatlaşdırmanın inkişafı və yeni informasiya texnologiyalarının tətbiqi kitabxana işinin modernləşdirilməsi və təkmilləşdirilməsi sahəsindəki işlərin, kitabxanaşünaslıq tədqiqatlarının aktiv aparılmasına zəmin yaratdı. Məlumdur ki, son vaxtlara qədər kitabxanaların modernləşdirilməsi daxili proseslərin avtomatlaşdırılması ətrafında toplanmışdır. Hal-hazırda isə inteqral məsələlər kitabxana fəaliyyətinin bütün sahələrini, xüsusilə yerli kitabxana fondlarının idarə edilməsini yaxşılaşdırmağa, oxuculara xidmət işinin keyfiyyətini yüksəltməyə imkan verir. Onu da qeyd edək ki, kitabxanaların əhəmiyyəti indi təkcə kitabxana fondunun həcmi ilə deyil, oxuculara təklif etdiyi xidmətlərin müxtəlifliyi, çeşidi ilə müəyyən olunur.

Məlumdur ki kitabxanaların ilkin, ən əsas, ümdə vəzifəsi oxucu tələbatlarının ödənilməsi, xidmətin fərdiləşdirilməsidir.Müasir şəraitdə kitabxana-informasiya xidmətinin əsasını informasiya tələbatlarının xüsusiyyətlərinin öyrənilməsi, onun ödənilməsi dərəcəsi, istifadəçilərin elmi informasiya mədəniyyəti səviyyəsi təşkil edir. Bununla bağlı olaraq fərdiləşdirilmiş xidmət sisteminin yaradılması aktual məsələ kimi qarşıda durur. Bu sistemin tətbiqi hər bir oxucunun ümumi və fərdi maraqlarını nəzərə alaraq tələbatının ödənilməsinə imkan verir. Hazırda kitabxanalarda tətbiq edilən elektron texnologiyasının əsasında oxucu kitabxanaya gəlmədən belə ona lazım olan informasiyanı əldə edə bilər. Dünya təcrübəsi göstərir ki, kitabxanaşünaslıq fəaliyyətində əsas siyasət fondun toplanması deyil, metainformasiyanın əldə olunması, daha dəqiq desək, informasiya haqqında informasiya, elektron informasiyanın əldə olunması siyasətidir. Müasir şəraitdə kitabxanalar informasiyaya çıxışı təmin edən müxtəlif vasitələrin əldə edilməsinə daha çox diqqət ayırırlar. Məsələn, kompakt disklərdə məlumat bazaları, həmçinin informasiyanın analitik-sintetik işlənməsinin təşkili və onun uzaq məsafəyə ötürülməsi və s.

İnformasiya xidməti sahəsində yeni tendensiyalardan biri də geniş oxucu dairəsi üçün məlumat bazasının formalaşmasından xüsusi və demək olar ki, fərdi məlumat bazalarının və informasiya sistemlərinin təşkilinə keçiddir ki, bu da çox müsbət haldır. Belə məlumat bazaları müəyyən istifadəçinin informasiya tələbatının müxtəlif sahələrini-mövzu, nəşrin tipi, xronoloji, linqvistik yazı və quruluşunu, informasiya mübadiləsi formasını və s. nəzərə alır. Onu da qeyd edək ki, müəyyən tip məlumat bazalarının yaradılması vasitəsilə xidmətin fərdiləşdirilməsi

kitabxanaların innovasiya (yenilikçilik) fəaliyyətinin əsas prioritet istiqamətlərindən biridir.

Kitabxanada elektron informasiya resurslarının gələcək inkişafının əsas mühüm istiqaməti aktual prroblemlər üzrə məlumat bazasının yaradılmasıdır.Hər hansı bir elm səhəsini əhatə edən sahəvi məlumat bazasından fərqli olaraq problemyönümlü məlumat bazaları təbiət elmləri səhəsində aparılan tədqiqatlar nəticəsində əldə olunan nailiyyətlərin əsasında bütün mütəxəssislər üçün maraq doğuran, qiymətli informasiyanı özündə əks etdirən məlumat bazalarıdır. Problemyönümlü məlumat bazaları istifadəçinin informasiya təminatında böyük əhəmiyyət daşıyır və informasiyanın toplanmasında avtomatlaşmış kitabxana informasiya sistemi funksiyasını həyata keçirir.

Hazırda dünya mütəxəssislərinin nəzərləri xidmətin optimallaşdırılmasına və elektron kataloq vasitəsilə informasiyaya çıxışın həyata keçirilməsinə yönəldilmişdir. Bunlar nəzərə alınaraq hazırda kataloqların quruluşu, forması təkmilləşdirilir, ümumaçıq interaktiv sənədin gələcək nəsillərinin strategiyası işlənib hazırlanır. Elektron kataloq vasitəsilə xidmət – kitabxananın oxucularına göstərdiyi ən perspektivli xidmətlərdən biridir. Elektron kataloqdan istifadənin səmərəliliyinin, onun axtarış imkanlarının öyrənilməsi müəyyən kitabxananın təcrübəsi əsasında ən prioritet istiqamətləri seçərək texnoloji axını korrektə etməyə imkan verir. Buna görə də, elektron kataloq istifadəçilərinin informasiya sorğularının öyrənilməsi, axtarış prosesi zamanı informasiya mədəniyyəti, rastlaşdıqları çətinliklər, elektron kataloqun axtarış imkanlarının yaxşılaşdırılması və xidmət sahələrinin genişləndirilməsi ilə bağlı təklifləri aktuallıq kəsb edir. Həm kitabxanaların daxilində, həm də kitabxanaların hüdudlarından kənarda istifadəçilərə göstərilən xidmətin bu növü daima yeniləşməli, təkmilləşməli və yeni informasiya texnologiyaları ilə təchiz olunmalıdır. Bununla əlaqədar olaraq elektron kataloq istifadəçilərinin müasir texnika ilə işləməsi prosesi daim izlənilir, ən fəal istifadəçi kateqoriyaları haqqında məlumat toplanılır, onların informasiya tələbatlarının təmin edilmə səviyyəsi analiz edilir, informasiya sorğularının mövzusuna kənar faktorların təsiri öyrənilir. Bu da, öz növbəsində, oxucu tələbatlarının inkişaf qanunauyğunluğunu müəyyən etməyə və elektron kataloqun axtarış imkanlarının təkmilləşdirilməsi istiqamətində müəyyən tövsiyələrin işlənməsinə, fondun komplektləşdirilməsi siyasəti və xidmət sahəsinin genişləndirilməsinə imkan verir. Onu da xüsusilə qeyd edək ki, bu işdə Britaniya kitabxanası, ABŞ Konqres Kitabxanası, Fransa Milli Kitabxanası, Yaponiya Milli Parlament Kitabxanası kimi dünyanın ən böyük milli kitabxanaları elektron kataloqun təşkili və istifadəsi sahəsində böyük təcrübə qazanaraq daim onun təkmilləşdirilməsi ilə məşğul olurlar.

Kompüterləşmə və telekommunikasiya əlaqələrinin müasir inkişafı kontekstində xidmətin ən prioritet növlərindən biri Elektron Sənəd Göndərişidir(ESG). Elektron Sənəd Göndərişi vasitəsilə xidmət istifadəçinin informasiya əldə etməsinə sərf olunan vaxtı mümkün qədər azaltmağa imkan verir. Elektron Sənəd Göndərişi kitabxana texnologiyasının ənənəvi sahəsi olsa da, elektron ehtiyatların və elektron kitabxanaların meydana gəlməsi ilə kitabxana xidmətinin bu növü keyfiyyətcə yeni məna kəsb etməyə başladı. Müasir şəraitdə Elektron Sənəd Göndərişi kitabxana əməkdaşlığının əsas tərkib hissələrindən biridir.

Kitabxana fəaliyyətində əsas diqqət təşkilati idarəetmə tipinin yeniləşməsinə yönəldilmişdir. Belə ki, əgər məzmunlu dolğun innovasiya ənənəvi kitabxana xidmətinin genişləndirilməsinə istiqamətləndirilmişdirsə, təşkilati idarəetmə imkanlarının zənginləşdirilməsi yeni idarətemə sisteminin formalaşmasına və yeni kitabxana quruluşunun yaradılmasına yönəldilmişdir. Bir çox dünya milli kitabxanalarının təcrübəsi göstərir ki, xidmətin keyfiyyəti kitabxanaların quruluşuna və kitabxana mühitinin təşkilinə yeniliklərin daxil olmasından asılıdır. Bu yeniliklərdən biri kimi oxu zallarında müxtəlif formalarda oxucu yerlərinin – müasir texnika ilə təchiz olunmuş ödənişsiz standart yerlərdən tutmuş, alimlərin redaktə və elmi tədqiqat fəaliyyətləri üçün nəzərdə tutulmuş ödənişli yerlərə kimi işlənib hazırlanmasını göstərə bilərik. Bir çox dünya milli kitabxanaları üçün funksional və ya qarışıq quruluşa keçid xarakterikdir. Misal üçün, Britaniya Milli kitabxanasında humanitar, texniki elmlər fondu birləşdirilmişdir. Bütün fondlara çıxış bir avtomatlaşdırılmış kitab verilişi kafedrası tərəfindən həyata keçirilir. Belə bir meyl Fransa Milli Kitabxanası, Almaniya üçün də xarakterikdir və bu da müasir elmin tələbləri ilə uyğunlaşır. Nəzərdən keçirilmiş dünya təcrübəsi göstərir ki, milli kitabxananın quruluşunda biznes bölməsinin və biznes informasiya mərkəzinin yaradılması daha səmərəli olar. Burada ənənəvi pulsuz xidmətlərlə yanaşı, pullu xidmətlər də göstərilməli, reklam agentliyi və firmaları ilə iş aparılmalı, informasiya məhsulları və xidmətləri bazarında marketinq tədqiqatları həyata keçirilməlidir. Bir çox ölkələrdə ticarətin kitabxana informasiya təminatı, sahibkarlıq fəaliyyəti ümumdövlət səviyyəsində həll edilir. Belə ki, məsələn, ABŞ Konqres Kitabxanasında ticarət sahəsi üzrə tədqiqat fondu yaradılmışdır. Bu təşkilati bölmə bütün ABŞ ərazisində müxtəlif informasiya vasitələrinin hazırlanmasını və o cümlədən, kitabxanalara, müəssisələrə xidmət prosesini maliyyələşdirir. Kitabxananın biznes informasiya adlı oxu zalında isə bütün mənbələr istifadəyə pulsuz verilir. Dünya marketinq fəaliyyəti sahəsindəki təcrübə göstərir ki, marketinq bölmələri, işgüzar informasiya mərkəzi və s. böyük dövlət və milli kitabxanaların tərkibində olduğu kimi, kütləvi kitabxanaların da tərkibində təşkil olunmalıdır.

Bütün yuxarıda deyilənlərdən aydın olur ki, cəmiyyətdə informasiyanın inkişafı müvafiq olaraq kitabxanada da xidmətin keyfiyyətini dəyişir, onun təsir dairəsini genişləndirməyə ehtiyac doğurur. Kitabxanaya ticarətlə, marketinq, menecment, sahibkarlıq fəaliyyəti ilə əlaqədar informasiya tələbatı ilə müraciət edən yeni oxucu kateqoriyaları yaranır ki, bu da kitabxana fəaliyyətinin təşkilinin yeni forma və üsullarının axtarışını, yeni xidmət növlərinin tətbiqini tələb edir. Dünya kitabxanaları üçün diqqət çəkən əsas məsələlərdən biri də kompleks xidmət metodudur. Bu, hər şeydən əvvəl, müəyyən oxucu kateqoriyaları üçün ixtisaslaşmış sahəvi sorğu-informasiya mərkəzlərinin təşkili – Xarici Verilənlər Bazasına çıxışı təmin edən xidmətin tətbiqi, interaktiv rejimdə sorğunun alınması və s.-dir.

Son illər kitabxananın əsas fiquru kimi oxucuya münasibət ideyasını irəli sürən «intellektual kitabxana quruculuğu» məfhumu kifayət qədər geniş yayılmışdır ki, burada da xidmətin keyfiyyətinin yüksəldilməsində kitabxanaçının rolunun artırılması, texniki intellektin tətbiqi əsasında kitabxananın modernləşdirilməsi nəzərdə tutulur. Yeni xidmət konsepsiyasını artıq tətbiq etmiş kitabxanalara –Parisdəki Corc Pompi-

du adına İnformasiya mərkəzini, Frankfurtda yerləşən Almaniya Milli Kitabxanasını misal göstərmək olar. Burada çevik xidmət sistemi, oxu zallarındakı açıq fond sərbəst, sərhədsiz, əlverişli şəkildə informasiyanı tez bir zamanda əldə etməyə imkan verir. İntellektual və informasiya azadlığı prinsiplərini həyata keçirməyin əsas faktoru ayrı-ayrı ərazilərdə deyil, həm də beynəlxalq miqyasda da kitabxana ehtiyatlarından geniş istifadənin təşkili; yeni informasiya texnologiyalarının, telekommunikasiya və avtomatlaşdırma vasitələrinin tətbiqi; kitabxana sistemləri və müəyyən qruplar üçün sorğu-axtarış aparatının yaradılması; interaktiv çıxışı olan verilənlər baza və bankının və s. təşkilindən ibarətdir. İnnovasiyalar (yeniliklər) sırasına son illər oxuculara xidmət və informasiya ehtiyatlarından ümumi istifadənin optimallaşdırılmasına yönəlmiş kitabxana fəaliyyətinin əlaqələndirilməsi üzrə yeni istiqamətləri də aid etmək olar. Hal-hazırda dünyanın bir çox ölkələrində fəal şəkildə həyata keçirilən əsas ideyalardan biri yeni kitabxanaların kooperasiyası ideyasıdır. Qlobal intellektual ehtiyatları əlaqələndirən vahid informasiya məkanının yaradılmasının vacibliyinin dərk edilməsi XIX yüzilliyin sonlarına təsadüf edir. Elə kitabxana əməkdaşlığının beynəlxalq abonement və beynəlxalq kitab mübadiləsi kimi növlərinin inkişafı da öz əsasını buradan götürmüşdür. Kitabxanaların yüksək səviyyəli elektron və telekommunikasiya vasitələri ilə təchiz olunması sayəsində oxucuların informasiya tələbatlarına mobil cavab verilməsi, yerli və dünya informasiya resurslarına azad çıxış əsasında onların opreativ təmin edilməsi üçün lazımi şərtlər yaradılmalıdır.

Bu gün müasir şəraitdə xidmət prosesini nəinki bir kitabxana ilə, hətta ən böyük, iri kitabxanaların gücü, qüvvəsilə təkmilləşdirmək mümkün deyildir. Buna görə də, beynəlxalq kitabxana cəmiyyətləri müxtəlif səviyyələrdə; beynəlxalq, sahəvi, təlimati və s. kitabxanaların əməkdaşlığının inkişafına çox böyük qüvvə sərf edirlər. Bu əməkdaşlıqlar beynəlxalq səviyyədə beynəlxalq proqramlar çərçivəsində həyata keçirilir. Onu da qeyd edək ki, bu təşkilatların hər birinin əsas məqsədi informasiya şəbəkələrinin yaradılması, hər bir ölkədə çap olunan bütün nəşrlərin tam biblioqrafik uçotunun aparılması, dünyanın istənilən sahəsində hər bir şəxs üçün bu informasiya ehtiyatlarından istifadənin ümumaçıqlığının təmin edilməsidir. Dünyanın böyük kitabxanalarının Fransa Milli kitabxanası, İngiltərə Milli Kitabxanası, ABŞ kitabxana şəbəkələri və s. təcrübəsi göstərir ki, dünya kitabxanaları arasındakı əməkdaşlıq sahəsindəki layihələr çox uğurla, milli, sahəvi və təlimati səviyyələrdə hər bir kitabxana şəbəkəsinin özünəməxsus xüsusiyyətləri, icraedilmə təlimatı və s. nəzərə alınmaqla fəal şəkildə həyata keçirilir. Onu da xüsusilə qeyd etmək lazımdır ki, hazırda bizdən fərqli olaraq MDB dövlət kitabxanalarında informasiya ehtiyatlarından qarşılıqlı istifadənin təşkili proqramları ciddi şəkildə işlənilir və tətbiq edilir.Bu işdə əsas məqsəd hamının istifadəsinə açıq olan virtual qlobal kitabxananın yaradılmasıdır. Odur ki, respublikamızda da dövlət əhəmiyyətli böyük kitabxanaların inkişaf strategiyasının əsasında mühüm yer vahid informasiya məkanının yaradılmasına ayrılmalı, elmi və tətbiqi tədqiqat kompleksinə və onun işlənməsinə xüsusi diqqət yönəldilməlidir.

Kitabxanaların əlaqələndirilməsi və birləşdirilməsi siyasi problemi dünya ölkələrinin qarşısında duran ən mühüm problemlərdən biridir. Onu da xüsusilə vurğulamaq lazımdır ki, bu problem nəinki inkişaf et-

miş ölkələrin qarşısında duran kəskin problemdir, həm də ilk növbədə, keçid iqtisadiyyatı şəraitində yaşayan dövlətlərin qarşısında duran çox mühüm aktuallıq kəsb edən problemlərdən biridir. Onu da qeyd edək ki, kitabxanaların qarşılıqlı əlaqəsinin əsasında əməkdaşlıq, inkişaf strategiyasının planlaşdırılması və məsləhəti durur. Burada əsas məsələ – kitabxana fondlarında toplanmış informasiya ehtiyatlarına çıxışın genişlənməsi və sadələşdirilməsi, qlobal informasiya ehtiyatlarına çıxışın təminatı, olduqca çətin və ucuz başa gələn texnologiyalarla informasiya ehtiyatlarının işlənməsi və idarə edilməsidir. Dünya milli kitabxanalarında kitabxana-informasiya xidmətinin inkişafındakı yeni tendensiyaların təhlili göstərir ki, sosial-iqtisadi həyatın dinamizmi, cəmiyyətin informasiyalaşması, vətəndaşların elmi və mədəni səviyyəsinin artması, informasiya tələbatları, kitabxanaların fəaliyyət formalarının dəyişməsinin vacibliyini irəli sürür.

Ancaq innovasiya təcrübəsinin tətbiqi milli ənənələr nəzərə alınmaqla kitabxanaçıların və eyni zamanda cəmiyyətin köklü dəyişikliklərə hazır olduğu zamanda həyata keçirilməlidir.

Dünya kitabxana cəmiyyətləri tərəfindən toplanmış kitabxana informasiya xidmətinin təkmilləşdirmə təcrübəsi kitabxana proqram və innovasiya layihələrini, mədəniyyətin qarşılıqlı zənginləşdirilməsinin uğurlu və vacib şərtidir.

## QEYDLƏR

1.Xələfov A.İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika.-2002.-17 aprel.
2.Xələfov A., Mehdiyeva N. Müasir dövrdə kitabxana fəaliyyətinin əsas istiqamətləri // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal. Bakı: 2005.-№1.
3.Багрова И.Ю.Библиотеке Конгресса-200 лет//Библиотековедение.-2002.-№2.
4.Багрова И.Ю.Стратегический менеджмент: опыт национальных библиотек Европы. Международный семинар.//Библиотековедение.-2003.-№5.
5.Березина Н.Е. Британская библиотека-читателям//Библиотековедение.-2002.-№2.
6. Библиотека в эпоху перемен (электронный ресурс).-http://www.library.ru/1/кb/books/adm.reform
7. Ленг Брайен.Будущее библиотек//Науч. и техн.библиотеки.-1998.-№4.
8. Шенина С.А.Внедрение новых технологий в обслуживание читателей: проблемы и преимущества//Науч. и техн. библиотеки.-2000.-№2.

## БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЕ ОБСЛУЖИВАНИЕ: СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ

С.И.МАММЕДОВА

### РЕЗЮМЕ

В статье рассматриваются новые тенденции библиотечно-информационного обслуживания читателей в информационном обществе. Особое внимание уделяется на разные формы и методы информационного обслуживания на основе практики зарубежных стран. Так же анализируются вопросы создания электронного каталога, электронной доставки документов и проблемно- ориентированных баз данных.

**LIBRARY-INFORMATION SERVICE: MODERN TENDENCIES**

**S.I.MAMMADOVA**

**SUMMARY**

The article is dedicated about new tendencies occuring in the processes of library-information service to readers in the modern time. İn the basic of experiment of the libraries of foreign country the different methods and forms of the library-information service are shown to readers. İn the article are explained the problem of creating electron catalogue, electron document notification and information bases about problem right too.